

# 10 oktyabr 1993-cü il – Azərbaycanın dünya birliyində tanınmasına zəmin yarandığı gün

***Azərbaycan xalqının taleyində yaddaşlara əbədi həkk olunmuş elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm əhəmiyyətli başlanğıcların əsası qoyulub. Belə unudulmaz günlərdən biri də 1993-cü il oktyabrın 3-nə təsadüf edir. Məhz o gün xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, əbədiyyətə çevrilməsini müəyyənləşdirən seçim etdi. Həmin gün respublikamızda keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük etimadını qazanaraq, 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu öndər ölkə seçicilərinə nə vəd etmişdisə, hamısını reallığa çevirdi. Vətənə və xalqa sədaqət andı, qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsi Azərbaycanın beynəlxalq aləmdə demokratik ölkə kimi tanınmasında mühüm rol oynaydı.***

Azərbaycanın müstəqillik qazandığı ilk illəri hər birimiz yaxşı xatırlayırıq. Həmin vaxtlarda respublikada xaos və anarxiya hökm sürürdü. İqtisadiyyat dağıdılmış, kənd təsərrüfatı bərbad vəziyyətə düşmüş, iş yerləri məhv edilmiş, əhalinin yaşayış səviyyəsi kəskin şəkildə aşağı düşmüşdü. Müxtəlif şəxslərə xidmət edən qeyri-qanuni silahlı dəstələrin özbaşınalığı əhalini qorxu və vahiməyə salmışdı. Cinayətkarlıq baş alıb gedirdi. Qarabağda döyüşmək adı ilə ağır və xüsusilə ağır cinayətlər törətmiş şəxslərin həbsdən azad edilərək silahlandırılması vəziyyəti daha da ağırlaşdırmışdı. Çünki həmin cinayətkarlar cəbhəyə yollanmaq əvəzinə, silahı öz soydaşlarına tuşlamışdılar.

1993-cü il iyun ayının əvvəllərində Gəncə şəhərindən başlayan silahlı qarşıdurmanın hakimiyyətə qarşı istiqamətlənməsi ölkədəki hərc-mərcliyi, anarxiyanı kuliminasiya həddinə çatdırmışdı. Bəzi xarici qüvvələrin də dəstəklədikləri bu silahlı qruplaşma Azərbaycanın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə yaratmışdı. Azərbaycan faktiki olaraq, dövlət müstəqilliyini itirmək ərəfəsində, xalq isə vətəndaş müharibəsinin astanasında idi. Belə bir ağır dövrdə xalqın təkidli xahişini qəbul edərək, hakimiyyətə qayıdan Heydər Əliyev respublikanı düçar olduğu ağır bəladan qurtarmaq üçün gecə-gündüz səy göstərdi. Xalqın qanı bahasına qazanılmış dövlət müstəqilliyi qorunub saxanıldı. Ulu öndər çağdaş tariximizə dövlətçiliyin xilaskarı, qurucusu kimi daxil oldu.

1993-cü il oktyabrın 3-də keçirilən növbədənkənar prezident seçkilərində seçicilərin, demək olar ki, böyük əksəriyyəti ulu öndər Heydər Əliyevə inandığını, güvəndiyini və etibar etdiyini səsvermə ilə təsdiqlədi. 1993-cü il oktyabrın 10-da Heydər Əliyevin andiçmə mərasimi keçirildi.

Ulu öndərin qarşıya qoyduğu əsas vəzifələrdən biri güclü, nizami ordu yaratmaq idi. Çünki həmin vaxt Ermənistanın torpaqlarımıza təcavüzünün qarşısını yalnız bu yolla almaq mümkün idi. 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki çıxışında da ordu quruculuğunun əhəmiyyətini xüsusi vurğulamışdı: “Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycan ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir”.

Prezident Heydər Əliyev nitqində qətiyyətlə bəyan etmişdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaq.

Ulu öndərin andiçmə mərasimində verdiyi vəd qısa zaman kəsiyində reallığa çevrildi. Bir müddət sonra Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəsin əldə edilməsi ilə ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yarandı və bu sahədə ciddi islahatlar aparıldı. Əsas vəzifələrdən biri vahid komandanlığa tabe olan nizami ordu yaradılması idi. Ulu öndər bu vəzifəni reallaşdırandan sonra Silahlı Qüvvələrimizin maddi – texniki bazasının gücləndirilməsi istiqamətində qətiyyətli addımlar atıldı.

Heydər Əliyev öz nitqində ölkədəki siyasi – iqtisadi vəziyyətin bərbad olduğunu da diqqətə çatdırmışdır: “...Müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi bir hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olmağı ağır və çətin bir haldır. Təəssüf ki, son illərdə respublikanın böhran vəziyyətində olması iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərmişdir. İqtisadiyyat, demək olar ki, tamamilə dağılmış və bu da respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır”.

Yaqin ki, həmin illər ölkədə baş verən hadisələr, AXC-Müsavat iqtidarının dövlət idarəçiliyindəki yarıtmaz fəaliyyəti, ölkənin təbii sərvətlərindən düzgün istifadə etməməsi, kənd təsərrüfatının inkişafını tamamilə unutması, əhalinin təleyüklü məsələlərindən çox öz maddi maraqlarını düşünməsi iqtisadiyyatı iflic vəziyyət salmışdı. AXC-Müsavat iqtidarı əhalini bir tikə çörəyə möhtac qoymuşdu. İnsanlar çörək almaq üçün gün ərzində mağazaların önündə növbəyə dayanır, işləyən adamlara isə əmək haqqı əvəzinə. heç kimə lazım olmayan hansısa məhsul verilirdi. Buna etiraz edənlər, səslərini qaldıranlar isə işgəncələrə məruz qalırdı. Ölkədə aclıq və səfalət baş alıb gedirdi. Ulu öndər öz nitqində belə mürəkkəb vəziyyətdən çıxış yolunu məhz ağıllı və prinsipial fəaliyyət göstərməkdə görürdü. Bunu andiçmə mərasimindəki nitqində də bəyan etdi: “Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Bu baxımdan biz gələcəkdə işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik... Mən bir Prezident kimi, xalqın qarşısında öz fikirlərimi açıq bəyan edir və əmin etmək istəyirəm ki, bu fikirlərə, bu prinsiplərə daim sadiq olacağam”.

AXC-Müsavat iqtidarının müstəqilliyimizə vurduğu ağır zərbələrdən biri də Azərbaycanın xarici siyasətində buraxılmış kobud səhvlər idi. Belə ki, Azərbaycan bu dövrdə beynəlxalq aləmdən təcrid olunmuş, qonşu dövlətlərlə, xüsusilə Rusiya və İranla münasibətlər getdikcə pisləşmişdi. Bu da respublikamızın müstəqilliyinin möhkəmləndirilməsində öz ağır nəticələrini göstərmişdi. Ulu öndər bu məqamı vurğulayaraq, respublikamızın müstəqilliyinin möhkəmləndirməsində əsas vəzifələrdən birinin Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, sərištəli xarici siyasətin həyata keçirilməsinin zərurliyini bildirmişdi. Müstəqillik əldə edildikdən sonra xarici siyasət sahəsində az iş görüldüyünü bildirən ulu öndər bu sahədə qarşıda böyük vəzifələr durduğunu qeyd etmişdi. Bidirmişdi ki, xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir.

Ulu öndər nitqində Azərbaycanın MDB-yə daxil olmasının, beynəlxalq aləmə inteqrasiyasının vacibliyini də qeyd etmişdi. Bildirmişdi ki, Azərbaycanın MDB-yə daxil olmasını təhlükəli bir hal kimi qələmə verməyə çalışırlar: “Bu, səhv fikirdir. Azərbaycan MDB-də öz müstəqilliyini daim qoruyacaq və MDB-də iştirak etmək Azərbaycanın müstəqilliyinə qətiyyən xələl gətirməyəcəkdir. Azərbaycan müstəqil bir dövlət kimi demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcəkdir. Azərbaycanda kommunist ideologiyası, kommunist rejimi bir daha bərpa olmayacaqdır. Güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də fikri belədir. Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır”.

Həmin dövr ərzində Heydər Əliyev dünyanın 24 ölkəsinə rəsmi səfər edib, BMT, ATƏT, NATO, Avropa İttifaqı, İƏT kimi beynəlxalq təşkilatların ali tribunasından Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırdı.

Tezliklə ölkədə hərtərəfli islahatlara start verildi, beynəlxalq aləmə inteqrasiya sürətləndirildi, müstəqil Azərbaycanın beynəlxalq aləmdəki əlaqələri genişləndi, bizimlə əməkdaşlıq etmək istəyən dostların sayı getdikcə artdı. Beynəlxalq aləmdə Azərbaycana olan inam və etimad yüksəldi. Bu inamın nəticəsi olaraq, “Əsrin müqaviləsi” kimi nəhəng neft sazişi imzalandı. İqtisadi böhrandan çıxmaq və siyasi müstəqillyi təmin etmək, dünyanın iri neft şirkətləri ilə əməkdaşlığı möhkəmləndirmək üçün ilk zəruri addımlar bunlardan ibarət idi. Ulu öndər bütün bu addımları böyük peşəkarlıqla reallaşdırdı və Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasını daha da sürətləndirdi.

Müstəqilliyimizin əbədiləşdirilməsi və Azərbaycan dövlətinin qüdrətlənməsi üçün həyata keçirilmiş yüzlərlə tarixi fakt sadalamaq mümkündür. Ölkənin ilk Konstitusiyasının hazırlanıb qəbul edilməsi, ilk milli parlament seçkisi, “Əsrin müqaviləsi”nin icrası zamanı hasil olunan neft və qazın Avropa bazarına çıxarılması üçün əsas ixrac neft və qaz kəmərlərinin marşrutunun müəyyənləşdirilməsi, işğal edilmiş torpaqların düşməndən azad edilməsi, Ermənistanın işğalçı dövlət kimi tanınması üçün aparılan siyasi-diplomatik danışıqların intensivləşdirilməsi, Azərbaycanın Avropa ailəsinə qəbul edilməsi üçün qarşıya qoyulan vəzifələrin reallaşdırılması, ölkəmizin demokratik prinsiplərin inkişafına xüsusi önəm verilməsinə , bu istiqamətdə insan hüquq və azadlıqların qorunmasına, azad və ədalətli seçkilərin keçirilməsinə nail olunması belə tarixi faktlardandır.

Ulu öndərin həmin vaxt andiçmə mərasimində verdiyi vədlər bugünkü Azərbaycanın dünya birliyndə özünə layiqli yer tutmasına zəmin yaratdı: “And içirəm ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq. Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam. Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin təminatçısı olacağam”.

Bu gün Azərbaycan dünyanın sayılıb-seçilən, söz sahibinə malik ölkələrindən biridir. Bu uğurların əsası məhz 1993-cü ildən qoyulub. Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin düşünülmüş daxili və xarici siyasəti sayəsində Azərbaycan hazırda sürətli inkişaf yolunda inamla irəliləyir.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***